# MÜSTƏQİL AZƏRBAYCANIMIZIN MEMARI

***53** il bundan öncə, 1969-cu ilin iyulunda Sovet Azərbaycanının tarixində gələcək müstəqil Azərbaycanın tarixinə hesablanmış böyük və misilsiz hadisə baş verdi. Bütün ömrünü Azərbaycan adlı bir məmləkətin varlığına bağlamış, taleyi Azərbaycan adı ilə qoşa yazılmış xalqımızın xilaskar oğlu, dünyanın ən böyük siyasətçilərindən biri olan Heydər Əliyev ilk dəfə Azərbaycana rəhbərlik etməyə başladı.*




Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin 1969-cu il 14 iyulda respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanın ən yeni tarixinin dönüş mərhələsinin başlanğıcı idi.

Heydər Əliyev və müstəqil Azərbaycan. Bunlar biri-birinə bağlı olan dəyərlərdir. Biz Heydər Əliyevin siyasətindən danışanda müstəqil Azərbaycanın quruculuğunu aydın şəkildə görürük. Ulu öndərin rəhbərliyi ilə ərsəyə gətirilmiş Müstəqil Azərbaycanın Konstitusiyası Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının müəyyənləşdiricisidir. Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsipləri Heydər Əliyev tərəfindən yaradılıb.

1969-cu ildə - ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi dövrdə həm SSRİ məkanında, həm Azərbaycanda sosial, iqtisadi, siyasi, mədəni və ictimai həyata nəzər salsaq, Azərbaycanın o dövrdə SSRİnin müttəfiq bir respublikası kimi iqtisadi baxımdan ittifaq miqyasında digər respublikalardan geri qaldığını görərik. İstər kənd təsərrüfatı, istər sənaye məhsulu istehsalı baxımından Azərbaycan inkişafdan geri qalmışdı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan qısa zaman kəsiyində ittifaq miqyasında iqtisadi baxımdan özünü təmin etməyə qadir olan respublikalar sırasına daxil oldu. 1970-1985-ci illərdə bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

SSRİ-nin dağılmaq ərəfəsində bir neçə müttəfiq respublika iqtisadi baxımdan özünü təmin edə bilərdi. Bunlardan biri Rusiya Federasiyası, Ukrayna, digəri isə Azərbaycan idi. Qalan respublikalar ittifaq büdcəsi hesabına yaşayırdılar. Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmış iqtisadi potensial sonrakı mərhələlərdə müstəqillik illərində Azərbaycan üçün çox əhəmiyyətli rol oynadı. Ulu öndər Heydər Əliyev bu dövrdə gələcək müstəqil Azərbaycanın iqtisadi, sosial, mənəvi və psixoloji bazasını yaratdı. Hakimiyyəti illərində ulu öndər Heydər Əliyevin həyata keçirdiyi daxili siyasət sayəsində Azərbaycanda milli özünüdərk, milli özünəqayıdış, milli vətənpərvərliyin gücləndirilməsi baxımından əhəmiyyətli addımlar atıldı. Milli şüurun inkişafı, milli kadrların yetişdirilməsi, o cümlədən Azərbaycanda milli ruhun yüksəldilməsi istiqamətində həyata keçirilmiş bir çox tədbirlər dövlətçiliyimizin inkişafında çox ciddi rol oynadı. Ulu öndər Heydər Əliyevin gələcək müstəqil dövlətin köklü, fundamental əsaslarını hakimiyyətinin ilk dövründə yarada bilmişdi.

Bəli, Heydər Əliyevin hakimiyyət illəri Azərbaycanın dönüş, dirçəliş dövrü idi. Ümummilli lider böyük bir yolun başlanğıcını qoymuşdur. O, 1993-1998, 1998-2003-cü illərdə Azərbaycana rəhbərliyi zamanı müstəqil Azərbaycanın quruculuğu işlərini davamlı olaraq həyata keçirmiş və müstəqil dövlətimizin qurucusu, yaradıcısı kimi Azərbaycan tarixində ümummilli lider səviyyəsində yer tutmuşdur. Ulu öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti 1969-cu ildə başladığı siyasətin məntiqi davamıdır. Bu yol güclü, qüdrətli, zəngin, lider yolu deməkdir. Bu yol bütün dünya azərbaycanlılarının azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsi deməkdir. 53 il bundan əvvəl başlanan yol bundan sonra Azərbaycan üçün aparıcı yol olacaq və Azərbaycan xalqı daimi ulu öndər Heydər Əliyev yolu ilə irəliləyəcək.

Ulu öndərimiz Azərbaycanın inkişafı üçün mühüm prinsiplər müəyyənləşdirib. Bu prinsiplərin başlıcası azərbaycançılıqdır. Azərbaycançılıq, eyni zamanda, sosial ədaləti, qanunçuluğu və digər başqa prinsipləri də özündə birləşdirərək, ölkəmiz üçün əsaslı rol oynayır. Varislik prinsipi Azərbaycan siyasətində çox əhəmiyyətli yer tutur və praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezident Azərbaycanın iqtisadi inkişaf modelini daha yüksək səviyyəyə qaldırmışdır. Bu gün dünyanı bürüyən qlobal iqtisadi böhran şəraitində Azərbaycanın əldə etdiyi uğur, inkişaf göz önündədir.

Bəli, 1969-cu ilin 14 iyul günü hər bir azərbaycanlının şərəflə yad etdiyi gündür. Ulu öndər Heydər Əliyevin ali hakimiyyətə gəldiyi gün onun şah əsəri olan Azərbaycanın parlaq tarixidir.

Ümummilli liderin idarəçilik, liderlik qabiliyyəti çox yüksək səviyyədə idi. Heydər Əliyev insanlarla gözəl ünsiyyət yarada bilir, onların problemlərini dinləyir və aradan qaldırılmasının yollarını axtarıb tapırdı. Xalqın Heydər Əliyevə inamı sonsuz idi. Heydər Əliyev hakimiyyətə gəldiyi gündən etibarən bütün sahələri paralel sürətdə inkişaf etdirdi. İqtisadi, siyasi, mədəni, aqrar, elm, təhsil sahələrində yüksək uğurlar və nəticələr əldə olundu.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ziyalılara inamı özünə qaytardı, mənəvi ab-havanı yüksəltdi, milli dəyərlərin öyrənilməsinə, qorunmasına böyük bir yol açdı, Azərbaycanda təhsilin və səhiyyənin səviyyəsinin yüksəldilməsi üçün hərtərəfli işlər gördü, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirdi.

1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 nəfər azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Ulu öndər Heydər Əliyevin dəstəyi nəticəsində həmin dövrün mədəniyyət xadimləri dünyada tanınmağa başladı. O, bir çox beynəlxalq tədbirlərin Bakıda keçirilməsinə nail oldu. Qısa bir dövrdə dahi rəhbər Heydər Əliyev Azərbaycanı elə bir yüksək səviyyəyə çatdırdı ki, onun gördüyü işlərin xalqı, vətəni üçün həqiqətən də, nə qədər dəyərli olduğunu sübut etdi. Ulu öndər hər zaman xalqımızı, xalqın ziyalılarını, milli düşüncəli insanları qoruyurdu. O, heç bir sahəni diqqət və qayğısından kənarda qoymurdu. Hər bir sahənin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu diqqət və qayğını əhalinin bütün təbəqəsi görürdü. Heydər Əliyevlə xalq arasında yaranan inam daimi və əbədi oldu. Bu inamı heç nə sarsıda bilmədi. Ümummilli liderin hakimiyyətə gəlişini Azərbaycanın yenidən dirçəlməsi kimi dəyərləndirmək olar. O, Azərbaycanı bütün dünyada tanıtdı. Bütün dünyanın diqqətini Azərbaycana yönəldə bildi. Dünya dövlətləri Azərbaycanla əməkdaşlığa can atdı, ölkəmizlə dostluğa, qardaşlığa söykənən əlaqələr qurdu və bu, özünü bu gün də göstərir. Bütün bunlar Heydər Əliyevin rəhbərliyi nəticəsində reallaşdı. Dövlət başçısı cənab İlham Əliyevi demişdir: **"Müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Biz hamımız, bütün Azərbaycan xalqı gərək bundan sonra onun gördüyü işləri davam etdirək, genişləndirək, onun yolu ilə Azərbaycanı gələcəyə aparaq".**

Bəli, ulu öndər Heydər Əliyev elə bir strategiya hazırladı ki, bu, Azərbaycanın uzunmüddətli inkişaf konsepsiyası oldu.

Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək, tədqiq etmək mümkün deyildir. Bu şəxsiyyətin böyüklüyünü, onun xalqımızın firavanlığı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün uzun zaman tələb olunur.

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün sahələrdə ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirir, ölkəmiz yeni-yeni nailiyyətlərə imza atır. Bu, Heydər Əliyev ideyalarının real bəhrəsi, gerçəkləşməsidir.

Bizim isə ən böyük vəzifəmiz Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşməkdir.

**Nurəddin MƏMMƏDOV,**
Gəncə Ağsaqqallar Şurasının sədri,
professor.